# Media Reyestri söz-məlumat azadlığının təkmilləşdirilməsində əsaslı islahatdır...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Azərbaycanda müstəqil medianın inkişafında dövlətin də maraqlı olduğu məlumdur. Bilirik ki, indiyə qədər fikir və söz azadlığının daha yüksək səviyyədə bərqərar olması üçün müxtəlif tədbirlər görülür, layihələr həyata keçirilir.**



Azərbaycan Prezidentinin fərmanı ilə Medianın İnkişafı Agentliyinin yaradılması bu sahədə inkişafa daha böyük təkan verir. Medianın həyata keçirdiyi islahatlar nəticəsində ortaya çıxan layihələr, proqramlar müsbət nəticələr verir. Bu ilin fevral ayının 8-də Prezident İlham Əliyev "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb. Bildiyimiz kimi, "Media haqqında" yeni qanun qüvvəyə mindikdən sonra bu sahədə ciddi islahatlar başlayıb. Qeyd edək ki, mütəxəssislər bu qanunu Azərbaycanda media islahatlarının "yol xəritəsi" kimi dəyərləndirir. Qeyd ediliyi kimi, qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır. Bildirək ki, qanun müasir tələblərə cavab verir. Ölkənin plüralist informasiya mühitinin gücləndirilməsinə şərait yaradır. Məlumdur ki, yeni Qanunun müvafiq bəndinə əsasən, jurnalistlər və media subyektləri Media Reystrinə daxil olmalıdırlar. Bildiyimiz kimi artıq media qurumlarının Media Reyestrinə alınması prosesi başlayıb.

Jurnalistlərin və media subyektlərinin Reyestrinin aparılması, eləcə də vahid jurnalist vəsiqəsilə təminat məsələsi söz, fikir, məlumat azadlığının daha möhkəm bərqərar olmasına necə təsir göstərəcək?

**Mediada gedən islahatlar...**

Əlbəttə, mediada güclü islahatların, bir çox yeniliklərin şahidi oluruq ki, bunlar həm müasir çağırışlara cavab verir, həm də söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinə imkan verir. Ekspertlərin fikrincə, "Media haqqında" qanun jurnalistlərin peşəkar fəaliyyətinin maneəsiz və effektiv həyata keçirilməsinə, media subyektlərinin yaradıcılıq və redaksiya müstəqilliyinin ən etibarlı şəkildə müdafiə edilməsinə və ifadə azadlığının möhkəmləndirilməsinə yönəlmiş təminat mexanizmlərinin daha da gücləndirilməsi üçün hüquqi əsas formalaşdırır.

Qanun qəbul edildikdən sonra Media Reyestrinin tətbiqinə start verilməsi müsbət haldır. Onu da vurğulayaq ki, ölkə başçısının fərmanı ilə 2022-ci ilin 26 sentyabr tarixində Media Reystrinin aparılması qaydaları təsdiqlənib...

Onu da vurğulayaq ki, reyestrə daxil olan jurnalistlərə vahid jurnalist vəsiqəsi veriləcək, eyni zamanda onlara bir sıra güzəştlər edilməsi nəzərdə tutulur. Bu baxımdan jurnalistlərin və medai subyektlərinin reyestrə daxil olması çox önəmlidir.

**"Bunun müsbət tərəfləri var"**

Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "Media Reyestrinin artıq fəaliyyətə başlamasını və bir sıra medai orqanlarının qeydiyyatdan keçməsini müşahidə edirik: "Əlbəttə ki, mediamıza, media mühitinə bir çeki-düzən verilməsinə ehtiyac vardı. Əslinə qalanda, bu sahədə müəyyən çalışmalar da oldu, vahid jurnalist vəsiqəsi və sair kimi ideyalar, təşəbbüslər də meydana çıxdı. Amma biz o vaxt arzu oluananı əldə edə bilmədik. İndi "Media haqqında" yeni qanun qəbul edilib və qanun çərçivəsində Media Reyestri qurulub, həmkarlarımız, media qurumlarımız yavaş-yavaş Reyestrə keçməyə başlayıb və bu sistem artıq fəaliyyətdədir. Bunun müsbət tərəfləri var. Bu nədən ibarətdir? Sözsüz ki, bununla media sahəsində təsadüfi adamlardan, xüsusən də mediadan sui-istifadə edənlərdən yaxa qurtarmaq üçün çox ciddi addımın atıldığını deyə bilərik. Yəni Media Reyestri yalnız o media qurumıarını, o jurnalistləri qeydə alacaq ki, həmin media qurumları və jurnalistlər doğrudan da normal bir şəkildə, qanun çərçivəsində, dövlət qeydiyyatından keçmiş halda fəaliyyət göstərir, eyni zamanda özünün jurnalist fəaliyyəti haqda məlumat vermiş şəxsləri və qurumları qeydə alacaq".

**"Azərbaycan jurnalistikası reyestr mərhələsindən sonra..."**

A.Həsrət hesab edir ki, özünü jurnalist sayan, amma jurnalist kimi heç bir fəaliyyəti olmayan, faktiki olaraq jurnalistikadan başqa hər şeylə məşğul olan adamlar bu reyestrə düşə bilməyəcək. A.Həsrət hesab edir ki, belələri çox zaman söz və məlumat azadlığından sui-istifadə edilənlərdir, amma bundan sonra onlar bu işi görə bilməyəcəklər. "Düzdür, reyesterə düşmədən də jurnalist fəaliyyəti ilə məşğul olmaq mümkündür. Lakin cəmiyyətdə reyestrdə olan media orqanlarının və jurnalistlərin həqiqətən daha üstün, daha hörmətli olması fikri formalaşacaq. Yəni qəbul ediləcək ki, doğrudan da ciddi jurnalistika ilə məşğul olanlar məhz reyestrə düşənlərdir, düşə bilməyənlər isə təsadüfi adamlardır, jurnalistikadan, söz və məlumat azadlığından sui-istifadə edənlərdir. Yaxud da ki, jurnalistikadan mütəmadi istifadə etməyənlərdir. Hesab edirəm ki, jurnalistikada bir keyfiyyət tənzimlənməsi mərhələsi başlayıb. Əlbəttə, çətiniklər də olacaq və sair. Amma yavaş-yavaş cəmiyyətə bunun mahiyyəti izah edildikcə, bunun faydasını insanlar gördükcə, düşünürəm ki, reyesrr öz gözlənilən nəticəsini verəcək. Yəni Azərbaycan jurnalistikası reyestr mərhələsindən sonra keyfiyyətin kəmiyyət üzərində qələbəsinin şahidi olacaq"-deyə A.Həsrət vurğuladı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**